## “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın 2010-cu il ərzində icra vəziyyəti haqqında yekun

# HESABAT

| Sıra №si | Tədbirin adı və həyata keçirildiyi yaşayış məntəqəsi (ərazi) | İcra müddəti | İşin həcmi (əd, km, pm və s.) | | İşin dəyəri (min manatla) | | Tədbirin icra vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| | | | ümumi | o cümlədən icra edilmiş | ümumi | o cümlədən icra edilmiş | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **4.1. Ölkə əhəmiyyətli tədbirlər** | | | | | | | |
| 1. | **4.1.12.Qeyri-neft sektorunun inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | Qeyri-neft sektorunda Aqrar sahənin inkişafı prioritet istiqamətlərdəndir. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyində də səlahiyyətləri daxilində tədbirlər görülür. Bazar iqtisadiyyatına uyğun olaraq bölgələr üzrə optimal əkin strukturları tərtib olunmuş, 2009-2015-ci illər üzrə istehsal proqnozları yerli icra orqanları ilə birlikdə hazırlanaraq nazirliyin 17.06.2009-cu il tarixli 01/14-08-248 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.<br>Kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa, qalan bütün vergilərdən azad edilmiş, əkin sahələrinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına, toxuculuq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən subsidiyalar, lizinq yolu ilə texnikalar verilir, güzəştli şərtlərlə mineral gübrə və bitki mahafizə vasitələri ilə təmin |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | edilir, aqrotexniki işlərin aparılması üçün texnikalarla, emal üçün texnoloji avadanlıqlarla təmin edilir, bir sıra bitki əkinlərinin sığortalanmasına dövlət tərəfindən maliyyə yardımı göstərilir, lizinq yolu ilə istehsalçılara yüksək məhsuldar damazlıq heyvan cinsləri güzəştli şərtlərlə satılır və s. Nazirlər Kabinetinin müvafiq Qərarları ilə istehsalçılara yanacağa görə hər hektar əkinə 40 manat, buğda əkininə isə əlavə 40 manat yardım göstərilir.<br>“Aqrolizinq” ASC vasitəsi ilə güzəştli şərtlərlə mineral gübrələr satılır. Lizinq və aqroservis xidmətləri göstərilir. 2009-cu ilin əkini üçün Rusiya Federasiyasında 7189 ton buğda toxumu gətirilərək istehsalçılara 50% güzəştlə satılmışdır. |
| **2.** | **4.1.39. Ölkənin alternativ və bərpa olunan enerji mənbələri potensialının müəyyənləşdirilməsi istiqamətində elmi-tədqiqat və layihə axtarış işlərinin təşkili** | 2009-2013 | | | | | Ölkənin alternativ və bərpa olunan enerji mənbələri potensialının müəyyənləşdirilməsi istiqamətində Sənaye və Energetika Nazirliyi geniş tədbirlər həyata keçirir. Belə ki, Quba rayonunun Xınalıq kəndində alternativ enerji mənbələrindən istifadə etmək üçün Ekoenergetika Akademiyası ilə birgə avadanlıqların quraşdırılması və müvafiq ərazilərin seçilməsi məqsədilə Sənaye və Energetika Nazirliyində elmi-tədqiqat işləri aparılmışdır. Azərbaycan Mühəndislik Akademiyası və Beynəlxalq Ekoenergetika Akademiyası tərəfindən “Azərbaycan Respublikası Quba rayonu Xınalıq kəndinin elektrik enerjisi və qaz təchizatı üçün alternativ enerji mənbələrindən istifadə etməklə Hibrid sistemin yaradılması” Layihəsi hazırlanmışdır. Layihədə yerli alternativ enerji mənbələrinin potensialı açıqlanmış və texniki istifadə məqsədilə ayrı-ayrı mənbələr üzrə araşdırmalar aparılmışdır.<br>Sənaye və Energetika Nazirliyi Şəki, İsmayıllı, |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Quba, Oğuz, və s. İcra Hakimiyyətləri ilə birlikdə bəndsiz kiçik su elektrik stansiyalarının tikintisi üzrə effektiv su resurslarının təyin edilməsi, elektrik stansiyalarının güclərinin və onların yerlərinin müəyyən edilməsi üzrə intensiv şəkildə tədqiqat işləri aparırlar. Analoji işlər digər rayonlarda da aparılır. Bu işlərə Avstriyanın məşhur “Methanco Energy”, Almaniyanın “Noblika”, “Azərbaycan Alyans Energy LLC”, və s. şirkətlər cəlb edilmişlər.<br>Qeyd etmək lazımdır ki, bu rayonlar ərazisində ilkin resurslar Oğuz üzrə 124 MVt, Şəki üzrə 60 MVt proqnozlaşdırılır. Yaxın günlərdə Quba rayonunda gücü 1.2 MVt olan Nügədi kiçik su elektrik stansiyası sistemə qoşulacaqdır.<br>Qobustan rayonunda gücü 5 MVt olan və Abşeronda gücü 10 MVt olan Hibrid Günəş-Külək Elektrik Stansiyası layihələri işlənilmişdir. |
| **3.** | **4.1.40. Ölkənin alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə məqsədilə müvafiq tədbirlərin keçirilməsi** | 2009-2013 | | | | | Alternativ enerji mənbələrindən istifadənin stimullaşdırılması məqsədilə Sənaye və Energetika Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər, görüşlər və təqdimat mərasimləri keçirilir. Sənaye və Energetika Nazirliyi Azərbaycanda alternativ enerji mənbələrindən istifadənin inkişafı üçün xarici investorların cəlb olunması və xarici şirkətlərlə əməkdaşlıq sahəsində mühüm addımlar atmışdır. SEN alternativ enerji mənbələrindən istifadə sahəsində Avropa İttifaqı, Asiya İnkişaf Bankı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Almaniyanın Baumgartner GmbH şirkəti, Şotlandiyanın Brumac şirkəti və s. ilə əməkdaşlıq edir. Azərbaycan Respublikası alternativ enerji mənbələrinin inkişafı və bu sahədə dünya ölkələri ilə yaxından əməkdaşlıq edilməsi üçün 10 iyun 2009-cu il tarixində Beynəlxalq Bərpa olunan Enerji Agentliyinə |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | (İRENA) üzv olmuşdur.<br>8 avqust 2009-cu il tarixində Sənaye və Energetika Nazirliyi ilə Ukrayna Sənaye Siyasəti Nazirliyinin "FİNPROM" Dövlət Müəssisəsi arasında Anlaşma haqqında Niyyət Protokolu imzalanmışdır. Protokolun şərtlərinə görə "FİNPROM" yerli şirkətlərlə birgə illik gücü 25 MVt olan günəş enerji qurğularını istehsal edən müəssisənin Bakı şəhərində yaradılmasını və yerli şirkətlərlə birgə 5 Mvt gücündə olan günəş panellərinin Azərbaycan ərazisində quraşdırılmasını öz üzərinə götürür. Həmçinin alternativ enerji mənbələrinin istifadəsi üzrə qabaqcıl dövlətlərin praktikasına əsaslanaraq SEN və "FİNPROM" Azərbaycan Respublikasının ərazisində və Xəzər hövzəsində istehsal olunan avadanlıqların (günəş panellərinin) mümkün satışı üçün qarşılıqlı müzakirələr aparılması və alternativ enerji mənbələrinin istifadəsinin stimullaşdırılması barədə mövcud qanunvericilik bazasına uyğun olaraq "FİNPROM" Dövlət Müəssisəsi 20 aprel 2009-cu ildə imzalanmış sazişə əsasən öz şəriki olan "KELWA International" LLC şirkəti ilə Respublikada yaradılan müəssisədə istehsal olunacaq günəş enerji qurğularının satışının stimullaşdırılması haqqında araşdırmalar aparılması haqqında razılığa gəliblər.<br>Qeyd etmək istərdik ki, Qobustan rayonunda 5 MVt gücündə Hibrid Stansiyasının və sınaq-təlim mərkəzinin tikintisinə başlanılmışdır. |
| **4.2. Bakı şəhəri** | | | | | | | |
| **Bakı şəhərinin rayon və qəsəbələrini əhatə edən tədbirlər** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **4.** | **4.2.2. Yüngül və yeyinti sənayesi** | 2009-2013 | | | | | Yüngül və yeyinti sənayesi müəssisələrinin fəaliyyəti genişləndirilməkdədir. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **müəssisələrinin fəaliyyətinin dəstəklənməsi** | | | | | | Hesabat dövründə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin alınması məqsədilə sahibkarlı subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsi və qiymətləndirilməsi" mövzusunda Bakı şəhərində seminar keçirilmiş və seminarda "Biznes Planın hazırlanmasının avtomatlaşdırılmış sistemi"nin təqdimatı edilmişdir.<br>Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2009-cu il ərzində Bakı şəhərinin müxtəlif rayon və qəsəbələrində 6 yüngül və yeyinti sənaye müəssisələrinin investisiya layihəsinin maliyyələşdirilməsinə 3178,0 min manat güzəştli kredit vəsaiti ayrılmışdır. Maliyyələşdirilmiş layihələr hesabına 79 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.<br>"Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin alınması məqsədilə sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsi və qiymətləndirilməsi" mövzusunda 10 nəfər sahibkarın və Bakı Biznes Tədris Mərkəzi əməkdaşlarının iştirakı ilə seminar keçirilmişdir. Seminarda investisiya layihələrinin tərtib edilməsi qaydaları geniş müzakirə edilmiş, Göyçay nümayəndəliyinin rəhbəri tərəfindən hazırlanmış investisiya layihələrinin tərkibində xüsusi proqram təminatına əsaslanmış "Biznes Planın hazırlanmasının avtomatlaşdırılmış sistemi"nin təqdimatı edilmişdir. Təqdimat böyük marağa səbəb olmuş və müəyyən dəyişikliklər edilməklə Bakı biznes Tədris Mərkəzinin regional nümayəndəlikləri vasitəsi ilə regionlarda tətbiqi tövsiyə edilmişdir. Almaniyada ixtisasartırma kursu keçəcək |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | sahibkarlar, o cümlədən Bakı şəhərində yüngül və yeyinti sənayesi sahəsində çalışan sahibkarlar üçün "Marketinq", "Menecment" və "Müasir texnologiyaların istehsal prosesinə tətbiqi" mövzularında treninqlər keçirilmişdir. 2010-cu ilin 6 ayı ərzində yüngül və yeyinti sənayesi üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi ilə bağlı müvəkkil kredit təşkilatları tərəfindən Sahibkarlığa Kömək Milli Fonduna müraciət daxil olmamışdır. Hesabat dövründə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən "Aqrar-sənaye məhsullarının rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi üzrə araşdırmaların aparılması" və "Azərbaycan Respublikasının fəaliyyət subyektlərində (kiçik və orta sahibkarlıq müəssisələrində) koorporativ idarəetmə və kooperativ maliyyə sistemlərinin qurulması və təkminləşdirilməsi" mövzusunda tədqiqat aparılmışdır. Bakı şəhərində potensial sahibkarlar üçün Beynəlxalq Əmək Təşkilatının "Öz biznesini başla və təkmilləşdir" proqramına uyğun olaraq Bakı Biznes Tədris Mərkəzi tərəfindən "Biznes ideyası yarat" treninqi keçirilmişdir. Treninqin iştirakçılarına Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin alınması məqsədi ilə sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsi və qiymətləndirilməsi haqqında icmal xarakterli məlumat verilmişdir. |
| **5.** | **4.2.3.Tikinti materialları istehsalının genişləndirilməsinin dəstəklənməsinin** | 2009-2013 | | | | | Sahibkarlığa Kömək Milli fondunun vəsaiti hesabına 2010-cu ilin 6 ayı ərzində Bakı şəhərinin müxtəlif rayon və qəsəbələrində tikinti materiallarının istehsalı ilə bağlı 3 investisiya layihənin maliyyələşdirilməsinə 4012000 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **davam etdirilməsi** | | | | | | manat güzəştli kredit vəsaiti ayrılmışdır. Maliyyələşdirilmiş layihələr hesabına 67 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. |
| **4.3. İqtisadi rayonlar üzrə həyata keçiriləcək tədbirlər** | | | | | | | |
| **4.3.1. Abşeron iqtisadi rayonu** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **6.** | **4.3.1.2.Yüngül və yeyinti sənayesinin inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | Bakıda şərabçılıq, süd məhsulları, yeyinti məhsulları müəssisələri əsasən yerli xammalla təmin olunur. MKT İK MMC-nin pambıq əyiricilik fabriki fəaliyyət göstərir. Toxuculuq fabrikinin qurulmasına başlanılıb və dövlət dəstəyinə ehtiyac vardır.<br>Sumqayıt şəhərində “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin alınması məqsədilə sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsi və qiymətləndirilməsi” və “İdarəetmə (menecment) və marketinq” mövzusunda treninqlər keçirilmişdir.<br>Eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2009-cu il ərzində Abşeron iqtisadi rayonunda 4 yüngül və yeyinti sənaye müəssisəsinin investisiya layihəsinin maliyyələşdirilməsinə 4 501,0 min manat güzəştli kredit vəsaiti ayrılmışdır. Bu layihələrin həyata keçirilməsi nəticəsində 481 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.<br>Güzdək qəsəbəsində 2 qrupluq uşaq bağçasının tikintisi davam edir.<br>Qobu qəsəbəsində 220 tamaşaçı–yerlik mədəniyyət evinin tikintisi davam edir.<br>Hökməli qəsəbəsində “Gilan” ağac emalı zavodunun, Süd məhsulları istehsalı kombinatının, Plastik qablar istehsalı zavodunun, Bir girişli, 12 mərtəbəli, 2 ədəd yaşayış evinin tikintisi davam edir.<br>Mehdiabad qəsəbəsində 1 girişli, 12 mərtəbəli, |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 2 ədəd yaşayış evinin tikintisi davam edir.<br>Məmmədli kəndində Quşçuluq fabrikinin, Mebel fabrikinin, Bir girişli, 5 mərtəbəli, beş ədəd yaşayış evinin, Bir girişli, 12 mərtəbəli, dörd ədəd yaşayış evinin tikintisi davam edir.<br>Görədli kəndində Feldşer–mama məntəqəsinin, İcra Nümayəndəliyinin inzibati binasının tikintisi davam edir.<br>Fatmayı kəndində Həkim ambulatoriyasının tikintisi davam edir.<br>Novxanı kəndində Duz emalı zavodunun tikintisi davam edir.<br>Saray qəsəbəsində Mebel fabrikinin, Plastik qapı – pəncərə sistemlərinin, 70 kottecdən ibarət “Villa–Badam” yaşayış kompleksinin, İki girişli, 9 mərtəbəli, iki ədəd yaşayış evinin tikintisi davam edir.<br>Ceyranbatan qəsəbəsində Bir girişli, 14 mərtəbəli, bir yaşayış evinin, 200 tamaşaçı–yerlik mədəniyyət evinin tikintisi davam edir.<br>Aşağı Güzdək qəsəbəsində Karton tara fabrikinin, Metal təbəqədən dam örtükləri hazırlayan zavodunun tikintisi davam edir.<br>Masazır kəndində Qaz paylayıcı stansiyanın, İki ədəd, 2 girişli, 5 mərtəbəli yaşayış evinin, Sahəsi 1200 $m^2$ olan İdman kompleksinin, On ədəd, bir girişli, 12 mərtəbəli yaşayış evinin, Dörd ədədi 2 girişli, 5 ədədi isə bir girişli 5 mərtəbəli yaşayış evinin tikintisi davam edir.<br>Xırdalan şəhərində 50 meqovoltamperlik yarım stansiyanın, 2982 mağazalı, 5800 iş yerlik “Riyad” Ticarət Kompleksinin, Meyvə şirələri istehsalı və topdan satış mərkəzinin, “Politra” mebel fabrikinin, Yeyinti məhsullarının saxlanması üçün soyuducu bazanın, 12 ədəd, 1 girişli, 5 mərtəbəli yaşayış evinin, 2 ədəd, 2 girişli, 5 mərtəbəli yaşayış evi, “Gənclər Şəhərciyi”ndə inşa edilmiş 67 bloklunun, 10 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | mərtəbəli, 47 ədəd yaşayış evinin, Ət məhsulları istehsalı kompleksinin, Taxıl və taxıl məhsulları saxlanması kompleksinin, 8 ədəd, 1 girişli, 12 mərtəbəli yaşayış evinin, Meyvə şirələrinin və təbii sularının qablaşdırılması zavodunun tikintisi davam edir.<br>Hökməli qəsəbəsində Əczaçılıq preparatları zavodunun, Mərmər–qranit üzlük materialları istehsalı zavodunun, “At yalı” yaşayış massivində feldşer–mama məntəqəsinin təməlinin qoyulması nəzərdə tutulmuşdur.<br>Mehdiabad qəsəbəsində İki ədəd, bir girişli, 10 mərtəbəli yaşayış evinin təməlinin qoyulması nəzərdə tutulmuşdur.<br>Məmmədli kəndində Altı ədəd, bir girişli, 12 mərtəbəli yaşayış evinin, Dörd ədəd, iki girişli, 5 mərtəbəli yaşayış evinin təməlinin qoyulması nəzərdə tutulmuşdur.<br>Masazır kəndində Bir ədəd, 3 girişli, 12 mərtəbəli yaşayış evinin, İki qrupluq uşaq bağçasının təməlinin qoyulması nəzərdə tutulmuşdur.<br>Xırdalan şəhərində Doqquz ədəd, bir girişli, 12 mərtəbəli yaşayış evinin təməlinin qoyulması nəzərdə tutulmuşdur.<br>Abşeron şərab zavodu fəaliyyətini genişləndirmiş, zavodda yeni texnoloji avadanlıqlar quraşdırılmışdır. Novxanı qəsəbəsində yeni pivə zavodunun tikintisi başa çatdırılmış və fəaliyyətə başlamışdır.<br>Sahibkarlığa Kömək Miili Fondunun vəsaiti hesabına 2010-cu ilin 6 ayı ərzində soyuducu anbar kompleksinin yaradılması, ət və süd emalı üçün 2 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 8 000000 manat kredit vəsaiti ayrılmışdır. Maliyyələşdirilmiş layihələr hesabına 78 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Hesabat dövründə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən "Aqrar-sənaye məhsullarının rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi üzrə araşdırmaların aparılması" və "Azərbaycan Respublikasının fəaliyyət subyektlərində (kiçik və orta sahibkarlıq müəssisələrində) koorporativ idarəetmə və kooperativ maliyyə sistemlərinin qurulması və təkminləşdirilməsi" mövzusunda tədqiqat aparılmışdır.<br>Bakı şəhəri, Abşeron rayonu və digər rayonlarda yüngül və yeyinti sənayesi müəssisələrinin nümayəndələri üçün Bakı Biznes Tədris Mərkəzi tərəfindən "Biznesin təşkili və idarə edilməsi" mövzusunda treninq təşkil edilmişdir. Treninqin iştirakçıları Marketinq və Menecment haqqında ətraflı məlumatlar almışlar. |
| **Sumqayıt şəhəri** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **7.** | **4.3.1.2. Yüngül sənayenin inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | Yüngül sənayenin inkişafı istiqamətində "İntertekstil" və "Xovlu İplik" ASC-də yenidənqurma işləri davam etdirilmişdir. "İntertekstil" ASC-də istehsal korpusu əsaslı təmir edilmiş, pambıq iplik emalı üçün müasir avadanlıqlar quraşdırılmış və sınaq-sazlama işləri aparılmışdır. "İntertekstil" ASC-də əsas istehsal sahəsinin yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir.<br>Sumqayıt şəhəri və onun qəsəbələri ərazisində mövcud yaşıllıqların qorunması, inventarlaşdırılması və yeni yaşıllıqların salınması ilə bağlı Sumqayıt şəhəri İcra hakimiyyəti yanında yaradılmış işçi qrupu tərəfindən mütəmadi olaraq yığıncaqlar keçirilmiş, konkret vəzifələr müəyyənləşdirilmişdir. Eyni zamanda, |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Sumqayıt şəhərinin inzibati ərazisində yeni yaşıllıq sahələrinin salınması, ağacların əkilməsi, suvarılması, qorunması və onlara xidmətin göstərilməsi ilə bağlı kompleks tədbirlər planı təsdiq edilmiş, həmçinin xüsusi xəritə - albom hazırlanmış, aidiyyəti üzrə müvafiq qurumlara, o cümlədən Ekologiya və Təbii Sərvətlər Nazirinin sədrliyi ilə keçirilən iclasda həmin nazirliyə təqdim olunmuşdur.<br>"İnter Tekstil" Açıq Səhmdar Cəmiyyətində yenidənqurma işləri başa çatdırılmış, pambıq xammalı alınmış, 22 dekabr 2010-cu il tarixində avadanlıqlar işə salınmış və pambıq iplik istehsalına başlanılmışdır |
| **8.** | **4.3.1.9. Neft-kimya və metallurgiya sənayesinin müasir texnologiyalar əsasında inkişafının dəstəklənməsinin davam etdirilməsi** | 2009-2013 | | | | | "Azərbaycan Alüminiumu" ASC-nin fəaliyyətinin dəstəklənməsi məqsədilə mövcud borcların ödənilməsi ilə bağlı dövlət zəmanəti ilə kreditin ayrılması istiqamətində müvafiq işlər görülmüşdür.<br>Şəhərin neft-kimya və metallurgiya sənayesinin müasir texnologiyalar əsasında bərpası və inkişafının dəstəklənməsi istiqamətində aparılan işlər davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış komissiya tərəfindən neft-kimya sənayesinin strateji inkişafı barədə müvafiq təkliflər hazırlanır.<br>Şəhər ərazisində inşası aparılan Texnoparkının (STP) birinci mərhələsində plastik borular zavodu, mis və alüminium elektrotexniki çubuqların istehsalı zavodu və 110 kilovolta qədər gərginlik kabelləri istehsalı zavodu istifadəyə verilmişdir. Sumqayıt Texnologiyalar parkında 500 kilovoltluq kabel zavodu, böyük mexaniki təmir zavodu, dəqiq emal zavodu, arqon-azot-oksigen zavodu, sayğaclar istehsalı zavodunun tikintisi başa çatdırılmış və avadanlıqların quraşdırılıması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | işləri aparılır. Həmçinin parkda qaynar sinkləmə zavodunun və hazır məhsul anbarının tikinti-quraşdırma işləri tam başa çatdırılmışdır, yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir.<br>Səhmləri investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilmiş "Azenco" ASC-nin Sumqayıt şəhərində inşa etdirdiyi Texnoloji Parkında müvafiq müəssisələrin yaradılması istiqamətində işlər davam etdirilir.<br>Şəhərdə tamamilə yeni olan bir sahə-kağız emalı zavodu istifadəyə verilmişdir. Bu müəssisədə gündəlik olaraq 50 ton kağız istehsalı nəzərdə tutulur. Eyni zamanda şəhər ərazisində "Azərsun Holdinq" tərəfindən gündəlik 170 tonluq istehsal gücünə malik karton və kağız emalı fabrikinin tikintisi davam etdirilir.<br>Şəhərdə yeni yarımstansiyanın tikintisi istiqamətində 2009-cu ilin sonunda şəhərin elektrik enerjisi təchizatının yaxşılaşmasına xidmət edən 525 MVT gücündə Sumqayıt Elektrik Stansiyası və gücü 200 meqavoltamper olan "Sumqayıt-3" 110/35/6 kilovoltluq qapalı tipli yarımstansiya tikilib istifadəyə verilmişdir.<br>Şəhərin 4-cü və 5-ci mikrorayonlarında, 34-36-cı məhəllələrində hava xətləri yeraltı elektrik kabelləri ilə əvəz edilmişdir. Hazırda şəhərin Kotec, Xəzər və Metallurq bağları və Beton zavod ərazisində 0.4 kV-luq elektrik verilişi xətlərinin SİP kabellərlə əvəz edilməsi işləri davam etdirilməkdədir.<br>Şəhərin 10,12,18-ci mikrorayonlarında və 14-cü məhəlləsində yerləşən orta təhsil müəssisələrini istiliklə təchiz etmək məqsədi ilə yeni modul tipli daşınan qazanxanalar işə salınmışdır. Şəhərin 17-ci mikrorayon ərazisində yerləşən mövcud istilik məntəqəsinin bazasında müasir tələblərə cavab verən yeni |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | qazanxana tikilib istifadəyə verilmişdir. Həmçinin Hacı Zeynalabdin qəsəbəsində 2009-cu ildə əsaslı təmir edilmiş istilik qazanxanası vasitəsilə 2 yaşayış binasında 32 mənzil istiliklə təmin edilmişdir.<br>Əhalinin qaz təminatının yaxşılaşdırılması üçün yeni qaz kəmərlərinin çəkilməsi, yaşayış massivlərinin, bağ təsərrüfatlarının qazlaşdırılması istiqamətində həyata keçirilən tədbir davam etdirilir.<br>Ötən il sutkalıq gücü 200 min kub metr olan Təmizləyici qurğunun icrası yekunlaşmışdır. Qurğuda sınaq-sazlama işləri başa çatdırılmış və məişət çirkab suların təmizlənməsinə başlanılmışdır.<br>2010-cu ilin yanvar-iyun ayı ərzində şəhər üzrə ümumi məhsul buraxılışı (ÜMB) 240,0 milyon manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə artmışdır. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun payı 75 faiz təşkil etmişdir. Son 7 il ərzində ümumilikdə şəhər üzrə məhsul buraxılışı və sənaye xarakterli xidmətlərin həcmi 2 milyard 677 milyon manatdan çox olmuşdur.<br>Şəhər üzrə sosial-iqtisadi sahələrdə çalışan işçilərin orta aylıq əmək haqqı 2010-cu ilin yanvar-iyun ayı ərzində 260 manat təşkil etmişdir. Son 7 il ərzində şəhər üzrə orta aylıq əmək haqqı 4 dəfə artmışdır.<br>2010-cu ilin yanvar-iyun ayı ərzində şəhər iqtisadiyyatında əhəmiyyətli paya malik olan sənaye sahələrində istehsal olunmuş məhsulun həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 2,0 dəfə artaraq 130 milyon manat təşkil etmişdir. İstehsal olunmuş sənaye məhsullarının əksəriyyəti istehlakçılara göndərilmişdir. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 2010-cu ilin yanvar-iyun ayı ərzində həyata keçirilən tədbirlər nəticəsində hamısı daimi olmaqla 800 yeni iş yeri yaradılmışdır. Ümumilikdə 2003- cü ildən 2010-cu ilin iyul ayının 1-nə kimi şəhər üzrə 22301 daimi olmaqla, 39877 yeni iş yeri yaradılmışdır.<br>“Azərikimya” istehsalat birliyi tərəfindən şəhərin kimya və neft-kimya müəssisələrində mövcud istehsalatların bərpası istiqamətində həyata keçirilən işlər davam etdirilmişdir.<br>“Sumqayıt Superfosfat” ASC-nin investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmiş, müsabiqə komissiyası tərəfindən şərtlər toplusu təsdiq edilmiş, müsabiqə haqqında elan kütləvi informasiya vasitələrində dərc edilmişdir.<br>“Etilen-polietilen” zavodunda texnoloji avadanlıqlar əsaslı təmir edilmiş, “EP-300” kompleksinə daxil olan texnoloji və mexaniki avadanlıqlar sökülərək daxili hissələrinin vəziyyəti texniki təftiş edilmişdir.<br>“Azərkimya” İB-nin “Mexaniki-təmir” zavodunda ilk dəfə olaraq Çexiyanın “TOPALvater” şirkətinin layihəsi əsasında sutəmizləyici qurğuların istehsalına başlanılmışdır. Konstruksiya etibarı ilə həm mexaniki, həm də avtomatika elementlərini özündə cəmləşdirən “Topas-75” tipli sutəmizləyici qurğunun yaşayış massivlərində, sənaye müəssisələrində və dəniz neft-çıxarma idarəsində tətbiqi nəzərdə tutulmuşdur. Ekologiya ilində istehsalına başlanılmış qurğunun yaxın gələcəkdə respublikamızın sənaye müəssisələrində geniş tətbiq olunması ətraf mühitin, o cümlədən Xəzərin ekologiyasının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **9.** | **4.3.1.10. Yeyinti sənayesinin inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | Yeyinti məhsulları istehsalı müəssisələri fəaliyyət göstərir.<br>CTS AQRO MMC-nin əyiricilik və toxuculuq fabriki qurulur. Əhalinin işlə təmin olunmasında əhəmiyyəti nəzərə alınaraq bu müəssisənin istifadəyə verilməsinə dövlətin maliyyə dəstəyi lazımdır.<br>Yeyinti sənayesinin inkişafının dəstəklənməsi ilə bağlı "Bismak" Qida Sənaye Kompleksi MMC-də yeni qənnadi istehsalı sahəsinin yaradılması ilə bağlı emal sahəsi və hazır məhsul anbarı üçün korpuslar tikilmiş, məhsul istehsalının həcmi və çeşidləri artırılmış, şokalad konfeti emalı üçün iki böyük xətt quraşdırılmış və məhsul istehsalına başlanılmışdır.<br>Yeyinti məhsulları istehsalı ilə məşğul olan "Elitar" MMC-də məhsul çeşidləri artırılmışdır.<br>2010-cu il ərzində Şəhərin digər sənaye sahələrinin bərpası və inkişafı ilə bağlı "İntertekstil" ASC-də yenidənqurma işləri davam etdirilmişdir. Müəssisənin əsas istehsal sahəsində əsaslı təmir və yenidənqurma işləri başa çatdırılmış, pambıq iplik emalı üçün müasir avadanlıqlar quraşdırılmışdır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur.<br>Sumqayıt Texnologiyalar parkında 500 kilovoltluq kabel zavodu, mexaniki təmir zavodu, dəqiq emal zavodu və arqon-azot-oksigen zavodunun tikinti-quraşdırma işləri davam etdirilmişdir. Texnoparkda sayğaclar istehsalı, həmçinin qaynar sinkləmə zavodunun tikintisi başa çatdırılmış, avadanlıqların quraşdırılması işləri davam etdirilir. Bu iki zavodun istifadəyə verilməsi nəzərdə tutulur.<br>"Bismak" qida sənaye kompleksində italyan texnologiyasə əsasında yeni karamel fabrikinin və gündəlik istehsal gücü 120 ton olan müasir |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | çörək zavodunun tikintisi üçün işlər aparılır. Bununla yanaşı "Delta Qrup C. O" MMC tərəfindən ümumi tutumu 4 min ton olan soyuducu anbar kompleksinin inşası həyata keçirilir. |
| **4.3.2. Aran iqtisadi rayonu** | | | | | | | |
| **Mingəçevir şəhəri** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **10.** | **4.3.2.16. Sənaye müəssisələrinin inkişafının dəstəklənməsinin davam etdirilməsi** | 2009-2013 | Enerji istehsalı müəssisələrində modernləşdirmə işləri və əsaslı yenidənqurma işləri | | | | Mingəçevir şəhərindəki sənaye müəssisələrinin inkişafının özəlləşdirmə yolu ilə dəstəklənməsi istiqamətində işlər davam etdirilir.<br>Kənd təsərrüfatı nazirliyi tərəfindən şəhər əhalisinin işlə təminatının yaxşılaşdırılması üçün yüngül sənayenin inkişafı dəstəklənir. Eyni zamanda mövcud toxuculuq müəssisəsi bərpa olunması nəzərdə tutulur.<br>- "Az.İES" MMC-də 8 mövcud enerji blokunun 2-ci, 3-cü, 4-cü və 5-ci enerji bloklarında əsaslı yenidənqurma işləri başa çatdırılmış və istehsal gücü 70-90 meqavat artmışdır.<br>- Stansiyanın əsas tüstü borularının təmiri ilə bağlı 2 ədəd müvəqqəti tüstü borusu inşa edilmişdir.<br>- 6 ədəd 20 min tonluq mazut çəninin quraşdırılması başa çatmaq üzrədir.<br>"Mingəçevir SES" MMC-də mövcud 6 hidroaqreqatdan 4-ü əsaslı yenidən qurulub. Hazırda silsilənin Mingəçevir stansiyasının 3-cü hidroaqreqatında və Varvara stansiyasının bir hidroaqreqatında əsaslı yenidənqurma işlərinə başlanmışdır.<br>"Mingəçevir Şüşə Lifi" ASC-nin səhmlərinin investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi haqqında elan "Mülkiyyət" qəzatində dərc edilmiş və komitənin rəsmi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | İnternet səhifəsində yerləşdirilmişdir.<br>2010-cu il ərzində "Az.İES" MMC-də enerji blokların istismarı ilə yanaşı təmir-tikinti işləri də davam etdirilmişdir. 1 saylı enerji blokunda başlanmış yenidənqurma işləri davam etdirilmiş, 2 saylı enerji blokda yenidənqurma işləri başa çatdırılmışdır.8 saylı enerji bloklarında modernləşdirmə işləri başa çatdırılaraq şəbəkəyə qoşulmuş və hazırda işləyir. Stansiyanın yanacaq təminatını yaxşılaşdırmaq məqsədi ilə quraşdırılan tutumu 20 min m³ olan 6 ədəd ehtiyat mazut çənlərinin tikintisi üzrə son tamamlama və abadlıq işləri, o cümlədən çənlərin ətrafının hasarlanması, sel suların ötürücü kanallarının çəkilişi, torpaq bəndlərinin qurulması və köməkçi texnoloji avadanlıqların quraşdırılması işləri davam etdirilir. Saylı tünelin qidalandırıcı kanalında torpaq işləri aparılmış, tunelin daxilində lillənmiş yerlərin yuyulub təmizlənməsi işləri davam etdirilmişdir.<br>"Mingəçevir SES silsiləsi" MMC-də mövcud 6 hidroaqreqatdan əsaslı yenidən qurulmuş, 4 hidroaqreqatda ümumi istehsal gücü 40 meqavat artmışdır. Hazırda silsilənin Mingəçevir stansiyasının 2 və 6 saylı hidroaqreqatları təmir olunmuşdur, 1 saylı hidroaqreqatda əsaslı yenidənqurma ilə əlaqədar söküntü işləri və Varvara stansiyasının 1 saylı hidroaqreqatında əsaslı yenidənqurma işləri davam etdirilmişdir.<br>Mingəçevir SES-də suqəbuledici kran və təmir sipərlərində təmir işlərinə başlanmışdır.<br>Varvara SES-də sol və sağ sahildə bərkitmə işləri davam etdirilir və kətilli kranın hərəkət və qaldırıcı mexanizmlərinin təmirinə başlanılmışdır. Yenidənqurma ilə əlaqədar olaraqstansiya Fransanın AREVA və ÇXR-nın CNEEC şirkətlərindən sipər və kranlara aid |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | ehtiyat hissələri, Mingəçevir SES-ə yarımstansiya avadanlıqları, nəzarət kabelləri və hər 2 stansiya üçün müxtəlif güclərdə olan transformatorlar gətirilmişdir.<br>Dövlət Proqramına əsasən son illər tikilmiş “İnterenerji” və “Kür” elektron avadanlıqları MMC-lərdə fəaliyyətlərini bərpa etmiş,<br>“Azyolneftmaş” və “Mingəçevir İzolit” ASC-lərdə istehsalın genişləndirilməsi istiqamətində işlər davam edir. Şəhərin digər sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı bu müəssisələrin özəlləşdirilməsinin sürətləndirilməsi barədə Əmlak Məsələləri Dövlət Komitəsinə müraciətlər olunmuşdur.<br>“Mingəçevir Texniki Rezin” və “Mingəçevir Regenerat” səhmdar cəmiyyətlərinin səhmlərinin investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi istiqamətində hazırlıq tədbirləri davam etdirilmişdir. |
| **Şirvan şəhəri** | | | | | | | |
| **11.** | **4.3.2.27. Yüngül və yeyinti sənayesinin inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | Şəhərin inzibati ərazisinə daxil olan Bayramlı qəsəbəsində 2800 nəfər əhali yaşayır. Şəhərin ən qədim sənaye müəssisəsi olan Pambıqtəmizləmə zavodu bu qəsəbədə yerləşir. Zavodda vaxtı ilə 800 nəfər işlə təmin olunmuşdur. 1997-ci ildə Səhmdar Cəmiyyətinə çevrilən zavod fəaliyyətini dayandırmış, kütləvi işsizlik yaranmışdır. Hal-hazırda qəsəbədə 600 nəfər yüngül sənaye sahəsi istiqamətində ixtisaslaşmış işçi qüvvəsi vardır. Qəsəbədə “Toxuculuq fabriki”nin tikintisi əhalinin işsizlik probleminin həllinə əhəmiyyətli dərəcədə təsir edər. Zavodun istehsal avadanlıqları və binalar istifadəyə yararlı vəziyyətdədir.<br>Rayonda MKT İK MMC-nin Yağ Piy zavodu yenidən qurulmuş və fəaliyyət göstərir. CTS Aqro MMC-nin pambıq emalı zavodu və yeni yağ-yem zavodu istifadəyə verilmişdir.Yeyinti |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | məhsulları istehsalı müəssisəsi fəaliyyət göstərir.<br>**“Anar” ATSC**<br>Müəssisə 26 may 1997-ci ildə yaradılmışdır. Müəssisənin səhmlərinin 70% özəlləşdirilmiş, 30% isə dövlətə məxsusdur. “Anar” ATSC ildə 2 min ton qarğıdalı çubuğu və 1000 ton qovurulmuş dənəvari təbii qəhvə istehsalı gücünə malikdir. Müəssisədə qarğıdalı çubuğu istehsalı üzrə 2 xətt, qovurulmuş dənəvari təbii qəhvə istehsalı üzrə 1 xətt mövcuddur. Həmin axın xətlərinin fəaliyyətinin bərpası üçün müasir avadanlıqların quraşdırılmasına ehtiyac vardır. Müəssisədə 145 nəfərin işlə təmin olunmasına imkan vardır.<br>**“Muğan-Pambıq” ASC**<br>Şirvan Pambıq zavodu 1934-cü ildən fəaliyyətə başlamışdır. Müəssisə ildə 45-50 min ton pambıq qəbulu gücünə malik olmuşdur. Müəssisə 1997-ci ildə Səhmdar Cəmiyyətə çevrilmişdir. Nizamnamə kapitalının 70% özəlləşdirilmiş, 30% isə dövlətə məxsusdur. Müəssisədə 600 işçi çalışmışdır. “Muğan-Pambıq” ASC-nin inzibati, istehsal və köməkçi binaları yararlı vəziyyətdədir. Mövcud avadanlıqlarda rekonstruksiya aparmaqla müəssisənin nəzdində “Toxuculuq” fabrikinin açılması məqsədəuyğundur. Qeyd edilən təklifin tətbiqi əhalinin işlə təminatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.<br>**“Süd” emalı zavodu.**<br>1930-cu ildə yaradılmış Süd emalı zavodu ətraf rayonlardan və əhalidən süd məhsulunu qəbul edərək müxtəlif çeşiddə məhsullar istehsal edib əhalinin tələbatını ödəyirdi. Süd zavodu mövcud hadisələrlə əlaqədar olaraq baxımsızlıq üzündən sökülüb dağıdılmış, avadanlıqlar isə yararsız vəziyyətə düşərək sıradan çıxmışdır. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Hal-hazırda süd emalı zavodunun tikintisinə böyük ehtiyac vardır və zavodun fəaliyyət göstərməsi üçün kifayət qədər xammal mənbəyi vardır. Belə ki, cari ildə əhali tərəfindən 1500 tona yaxın süd istehsal edilmişdir ki, bu da zavodun fəaliyyəti üçün lazım olan qədər xammaldır. |
| **Yevlax şəhəri** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **12.** | **4.3.2.38.Yüngül sənaye məhsulları istehsalının genişləndirilməsinin dəstəklənməsi** | 2009-2010 | 720 m²<br>12 800 m² | 720 m²<br>4032 m² | 3718,0<br>5500,0 | 1452.0<br>2000,0 | Rayonda pambıqçılığın inkişafı üçün 786 hektar sahədə ABŞ-ın Valmont Şirkəti ilə yeni suvarma sistemi və texnologiya tətbiq olunur. Yeyinti məhsulları istehsalı müəssisələri fəaliyyət göstərir. Rayonda pambıq emalı zavodu, yeyinti məhsulları fabriki fəaliyyət göstərir. Kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır.<br>2010-cu il ərzində yerinə yetirilmiş işlər:<br>-“Lalə-Tekstil” MMC tikiş fabrikinin kostyum sexi (Yevlax şəhəri)<br>-“Lalə-Kemikl” yuyucu tozlar zavodu Yevlax şəhəri |
| **Ağcabədi rayonu** | | | | | | | |
| ***Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri*** | | | | | | | |
| **13.** | **4.3.2.53.Pambıqçılıq taxılçılıq və heyvandarlıq məhsullarının istehsalının və kiçik emal müəssisələrinin inkişafının dəstəklənməsi** | 2009-2013 | | | | | 27383 hek sahədə payızlıq və yazlıq taxıl əkilmişdir. 01.10.2009-cu il tarixə 84712 ton taxıl istehsal olunmuşdur<br>Rayonda 1769 hektar pambıq əkilmiş, 2500 ton məhsul istehsal olunmuş, 2 pambıq emal müəssisəsi fəaliyyət göstərir, 85 min ton taxıl istehsal olunmuşdur.<br>Ağcabədi rayonunda ildə orta hesabla 48,0 min ton süd istehsal olunur. Rayonun Ağcabədi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | kəndində sutkalıq gücü 20 ton olan süd emalı müəssisəsində son tamamlama işləri başa çatmaq üzrədir.<br>Tikintisinə 2009-cu ildə başlamış Ağcabədi şəhər süd zavodu isə yaxın günlərdə istifadəyə veriləcəkdir. Burada müxtəlif çeşiddə süd məhsulları hazırlanacaqdır.<br>Ağcabədi rayonunda heyvandarlığın daha da inkişaf etdirilməsi, mal-qaranı məhsuldarlığının yüksəldilməsi sahəsində işlər davam etdirilir.<br>Rayonda 10 nəfər süni mayalama texniki fəaliyyət göstərir. Rayon üzrə 746 baş inək, camış və düyə süni mayalandırılmış və 426 baş bala alınmışdır. . MKT və CTS AQRO-nun pambıq emalı zavodları fəaliyyət göstərir.<br>2010-cu ilədək Rayonun Kəbirli, Mehrablı və Aran kəndləri ərazisində 1 ədəd 35/10 kv-luq yarımstansiyasının tikintisinin tamamlanması planlaşdırılır.<br>Ağcabədi YGEŞR-da 2009-cu ildə bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Ağcabədi YGEŞR-nun balansında olan 330/110/10 kv-luq “Ağcabədi” y/st-da 25 MVA transformator 63 MVA yeni transformatorla əvəz olunması üçün transformator gətirilmiş, quraşdırılma işlərinə başlanılmışdır.<br>2010-cu ilin I rübü ərzində Ağcabədi YGEŞR-nun hava xətləri yarımstansiyalarının qrafikinə əsasən nəzərdə tutulmuş təmir və istismar işləri yerinə yetirilmişdir. Balansda olan 330 kv-luq “3-cü İmişli”, 110 kv-luq Ağdam, 1-ci Beyləqan, İmişli-Ağcabədi hava xətləri və 35 kv-luq hava xətlərində cari təmir işləri görülmüşdür. 35/10 kv-luq “Hindarx-1”, “Hindarx-2” və “Ağcabədi-2” y/st-da 35 kv-luq yağ açarları cari təmir edilmişdir. 203 ədəd fərdi abonentlərin və məcburi köçkünlərin evlərində sayğaclar quraşdırılmışdır. Ağcabədi şəhərində |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
